Azərbaycan Yazıçılar Birliyi

# Ədəbiyyat Qəzeti

www.edebiyyatqazeti.az

15 iyun 2024-cü il. Şənbə № 22 (5464) 1934-cü ildən çıxır www.ayb.az Qiyməti 40 qəpik

# Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik

**Hörmətli həmvətənlər!**

**Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, ən xoş arzu və diləklərimi yetirirəm.**

**Dünya müsəlmanlarının mənəvi həmrəyliyinin təcəssümü olan Qurban bayramında mömin insanlar Allah və din yolunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirmək fürsəti qazanır, Uca Yaradana yaxınlığın sevincini yaşayırlar.**

**Bəşər mədəniyyətinə və elmi-fəlsəfi fikir xəzinəsinə misilsiz töhfələr vermiş Azərbaycan xalqının dünyagörüşünün təşəkkülündə və milli-mədəni inkişafında İslam dini mühüm mərhələ təşkil edir. Ayrı-ayrı xalqların və dinlərin mənsublarının mehriban ailə kimi yaşadıqları ölkəmizdə qarşılıqlı hörmət və etimada əsaslanan nümunəvi birgəyaşayış mühitinin formalaşmasında və etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanılmasında mütərəqqi islami dəyərlərin rolu danılmazdır.**

**Dini bayramlar, o cümlədən Qurban mərasimləri cəmiyyətimizdə milli-mənəvi birliyin, xeyirxahlıq və mərhəmət duyğularının təntənəsinə çevrilir. Bu mübarək bayram günlərində ölkəmizin hər yerində geniş xeyriyyəçilik və sosial yardımlaşma tədbirləri həyata keçirilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur.**

**Əziz bacı və qardaşlarım!**

**Xalqımızın firavanlığı və əmin-amanlığı naminə etdiyiniz duaların və kəsdiyiniz qurbanların Tanrı dərgahında qəbul olunması diləyi ilə bir daha hər birinizə səmimi təbriklərimi çatdırır, ailələrinizə firavanlıq, süfrələrinizə xeyir-bərəkət arzulayıram.**

**Qurban bayramınız mübarək olsun!**

**İlham ƏLİYEV**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 14 iyun 2024-cü il*

# 15 iyun - Milli Qurtuluş Günü



## Dünya vətəndən başlayır



## Folkner ömürlüyü



## Yücel Feyzioğlu ilə bir müsahibə